# «ASAN xidmət» yeni xidmətə başlayır

Qəbələ regional "ASAN xidmət" Mərkəzində yeni fəaliyyətə başlayan Uşaq Psixo-Sosial İnkişafı Mərkəzi tərəfindən vətəndaşlara psixoloji yardım xidmətləri göstərilir. Qəbələ rayonu ilə bərabər İsmayıllı, Oguz, Ağdaş və digər ətraf rayonların sakinləri də Qəbələ regional "ASAN xidmət" mərkəzində fəaliyyət göstərən Uşaq Psixo-Sosial İnkişafı Mərkəzinə müraciət etməklə psixoloji xidmətlərdən yararlana bilərlər.

Həftə içi beş iş günü olmaqla ümumilikdə vətəndaşlara 22 növ psixoloji xidmətlər göstərilir.

Xidmətlər ödənişli əsaslarla aprılır. Vətəndalara təqdim olunacaq bütün xidmətlər 1 saat davam edir.

Qeydiyyat üçün tələb olunan sənəd: müraciət edən valideynin şəxsiyyət vəsiqəsi

Psixoloji xidmətlərin 3 - 12 yaşadək uşaqlar üçün göstərilməsi müəyyən olunmuşdur.



Göstərilən xidmətlər aşağıdakılardır:

**Psixoloji qiymətləndirmə**

**Fərdi psixoloji konsultasiya**

**Xususi qayğıya ehtiyacı olan uşaqların inkişaf proqramı**

**Uşaq qrup terapiyası**

**Analar klubu** (mövzuya uyğun olaraq ekspert, ginekoloq, həkim və mütəxəssislər dəvət olunur)

Vətəndaşlar əlavə olaraq 077 225-15-01, 077 225-15-07 telefon nömrələrinə zəng etməklə və ya Qəbələ regional "ASAN xidmət" mərkəzinə müraciət edərək xidmətlər haqqında ətraflı məlumat əldə edə bilərlər.

**Əziz valideynlər!**

Yeni tədris ilinin başlanması ilə bağlı Sizi övladlarınızın məktəbə hazırlıq səviyyəsini psixoloji proseslərinin (diqqət, hafizə, təfəkkür, təxəyyül, ) inkişafını, emosional durumunu (aqressiya, özünə qapanma, həyəcan , qorxu ) və xüsusi bacarıqlarının aşkarlanması üçün diaqnostikaya dəvət edirik.

Psixodiaqnostika mərkəzimizin peşəkar psixoloqları tərəfindən aparılacaq. Diaqnostikanın nəticələri sizə xüsusi formada təqdim olunacaq.

# 1001 dərdin dərmanı bal

Bal bakteriyaları məhv edir.

Balın tərkibində insan orqanizmi üçün xeyirli olan 500-dən artıq mineral maddələr, karbohidratlar, fermentlər, vitaminlər, turşular və zülallar var.

Bir xörək qaşığı balda 64 kilokalori, bir kiloqram balda isə 3150 kilokalori enerji var.

Sokrat balı «uzunömürlülük cövhəri» adlandırıb.

Distilə edilmiş su ilə düzəldilən bal şərbəti böyrək və sidik kisəsi daşı xəstəliklərində əhəmiyyətli müalicə vasitəsidir.

Üzdə olan sızanaqlara da bal sürtmək məsləhətdir.

Bal şərbəti ilə qarqara etmək ağızda olan yaraların, boğaz ağrısının və şişməsinin qarşısını alır.

Bal qan dövranını yaxşılaşdırır, ürək döyüntüsünü tənzimləyir, bəlğəmin orqanizmdən xaric edilməsinə müsbət təsir göstərir.

Bal mədə köpünün qarşısını alır,mədə ağrısına, bağırsaq sancılarına kömək edir.

Şəkər xəstəliyindən əziyyət çəkənlərin və yaşlı insanların qəndi, şəkəri balla əvəz etməsi məsləhət görülür.

Öskürəkdən qurtulmaq üçün bişirilmiş isti süd ilə bal qarışdırıb içmək də çox faydalıdır.

Yuxusuzluqdan əziyyət çəkənlər üçün yatmazdan qabaq 1 çay qaşığı bal yemək məsləhətdir,

Bal sidikqovucu xassəyə malikdir.

Bal yaraların tez sağalmasına müsbət təsir göstərir.

Vərəmdən əziyyət çəkən xəstələrə çiçək balını qızılgül ləçəkləri ilə qarışdırıb səhər və axşam qəbul etmək məsləhət görülür.

Dakdor Carfis «Xalq təbabəti» kitabında yazır: «Enurez xəstəliyi olan uşaqlara yatmazdan qabaq bir çay qaşığı bal vermək onlarda gecə sidik saxlama vərdişinin yaranmasına müsbət təsir göstərir».

Bal gözün görmə gücünü artırır.

Zeytun yağı ilə qarışdırılmış bal bədənin yanmış yerlərinə çəkilsə, ağrı kəsməsə də, sağalmanı sürətləndirir.

Bal sarılıq xəstəliyyinin sağalmasına da kömək edir.

**Toplayanı:**
**Emin ƏDİLLİ,**
**arıçı.**




QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti
qəzetinə

*2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.*

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# 3:2 hesablı qələbə

"Qəbələ" və "Dinamo" (Tbilisi) klublarının aşağı yaş qruplarından olan komandalar arasında ilk matçlar keçirilib.

"Qırmızı-qaralar"ın U-13 və U-15 komandaları Qəbələdə səfərdə olan qonşu ölkədən gələn həmyaşıdları ilə görüşüb. On üç yaşadək futbolçuların oyununda məhsuldar nəticə qeydə alınıb. 3:2 hesabı ilə qalib gələn "Qəbələ"nin heyətində Elmir Hüseynli, Murad Ələkbərov və Eşqin Əhmədov fərqləniblər. U-15 komandalarının matçında isə bir qol vurulub. Bu qarşılaşmada qonaqlar üstün olublar.

# İTMİŞDİR

**Gilan MMC-yə məxsus** 99 JE 088 dövlət qeydiyyat nişanlı, DAEWOO markalı, BS 090 modelli Şassi nömrəsi 005916, ban nömrəsi 005916, 2012-ci il istehsallı sərnişin avtobusuna verilmiş **texniki pasport** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Həmzəli kənd sakini **Kərimov Rövşən Yunus oğluna** verilmiş 12 oktyabr 2013-cü il tarixli RX seriyalı 0252046 nömrəli (reyestr nömrəsi 406013013608, qeydiyyat nömrəsi 1913007998) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və 18 mart 2013-cü il tarixli AA 000921 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 05 fevral 1999-cu il tarixli 03 saylı qərarı ilə Nic qəsəbə sakini **Bağırova Sevda Abbas qızına** verilmiş JN seriyalı 062 F nömrəli (kod 40600068) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Vəndam qəsəbə sakini **Bağırova Sevda Abbas qızına** 20 may 2016-cı il tarixdə verilmiş RX seriyalı 0851443 nömrəli (reyestr nömrəsi 406013014666, qeydiyyat nömrəsi 1916003052) Hüqüqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın **Dövlət reyestrindən çıxarış** və 20 may 2016-cı il tarixli 060808 nömrəli (reyestr nömrəsi 406013014666) **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Mirzəbəyli kənd sakini **Ədilova Tamara Camı qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 090 F nömrəli (kod 40613018) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayonu Nic Bələdiyyəsinin 09 mart 2004-cü il tarixli 03 saylı qərarı ilə «Xəzər» MMC-yə verilmiş JN seriyalı 4533 nömrəli (kod 40600068) **torpaqdan müvəqqəti istifadə hüququna dair şəhadətnamə və torpaq sahəsinin planı** itdiyi üçün etibarsız sayılır.

İsmayıllı Rayon Aqrar İslahat komissiyasının 17 mart 1998-ci il tarixli 43 nömrəli qərarı ilə İsmayıllı rayonu Sumağallı kənd sakini **Həsənov Adil Məbud oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 185 nömrəli (kod 40711038) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Bunud kənd sakini **Səfərov Elçin Rasim oğluna** 08 iyun 2016-cı ildə verilmiş RX seriyalı 0855010 nömrəli (reyestr nömrəsi 406013005187 qeydiyyat nömrəsi 1916003856) **hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış** və 08 iyun 2016-cı il tarixli 061144 nömrəli (reyestr nömrəsi 406013005187) **torpaq sahəsinin planı və ölçüsünə dair sənədlər** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Bunud kənd sakini **Osmanov Fərman Cumu oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0005 nömrəli (kod 40603018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Bunud kənd sakini **Osmanov Cumu Soltan oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0006 nömrəli (kod 40603018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Tola kənd sakini **Soltanov Şirinbala Şəmsəddin oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 085 G nömrəli (kod 40617028) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin kollektivi iş yoldaşları **Şükufə Məmmədovaya** anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

4 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin kollektivi iş yoldaşları **Sevinc xanıma** əzizi

**AĞALİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.


Məsul katib
Qüdrət Səmədov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.